**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# AZƏRBAYCAN RESPUBLİKASINDA TİKİNTİ MÜƏSSİSƏLƏRİNİN RƏQABƏTQABİLİYYƏTLİLİYİNİN YÜKSƏLDİLMƏSİNDƏ İNVESTİSİYA-İNNOVASİYA FƏALİYYƏTİNİN İDARƏ EDİLMƏSİ VƏ TƏKMİLLƏŞDİRİLMƏSİ İSTİQAMƏTLƏRİ

İxtisas: 5312.01 – "Sahə iqtisadiyyatı"

Elm sahəsi: İqtisad elmləri

İddiaçı: **Orxan Əcəm oğlu Naqdiyev**

Fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2024**

Dissertasiya işi Azərbaycan Memarlıq və İnşaat Universitetində yerinə yetirilmişdir.

Elmi rəhbər: iqtisad elmləri doktoru, professor,
**Məhəbbət Aşır oğlu Məmmədov**

Rəsmi opponentlər: iqtisad elmləri doktoru, professor
**Elşən Mahmud oğlu Hacızadə**

iqtisad üzrə fəlsəfə doktoru, dosent
**Təbriz Abdulla oğlu Yadigarov**

iqtisad üzrə fəlsəfə doktoru
**Fuad Hidayət oğlu Bəşirov**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Kooperasiya Universiteti nəzdində fəaliyyət göstərən ED 2.46 Azərbaycan Kooperasiya Universiteti və Bakı Biznes Universitetinin Birgə Dissertasiya şurası.

Birgə Dissertasiya şurasının sədri: ____________ AMEA-nın həqiqi üzvü, iqtisad elmləri doktoru, professor
**Ziyad Əliabbas oğlu Səmədzadə**

Birgə Dissertasiya şurasının elmi katibi: ____________ iqtisad elmləri üzrə fəlsəfə doktoru, dosent
**Samirə Yaşar qızı Məmmədova**

Elmi seminarın sədri: ____________ iqtisad elmləri doktoru, professor, Əməkdar kənd təsərrüfatı işçisi
**İslam Hacı oğlu İbrahimov**

## İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi**. İqtisadiyyatın rəqəmsal transformasiyası şəraitində qloballaşan dünya iqtisadiyyatında əmtəə istehsalçıları arasında rəqabətin olması bazar iqtisadiyyatının fəaliyyət göstərməsinin şərtlərindən biridir. Əmtəə istehsalçıları arasında qarşılıqlı rəqabət şəraitində əldə olunan uğur bir çox amillərdlə yanaşı, müəssisələrin innovativ fəaliyyətindən də əsaslı şəkildə asılıdır. İqtisadi fəaliyyətin bütün sahələrində olduğu kimi, tikinti müəssisələrinin rəqabət qabiliyyətinin yüksəldilməsi də innovasiya-investisiya fəaliyyətinin optimal idarə edilməsi ilə üzvi surətdə əlaqədardır.

Yeni texnologiyaların və materialların istifadəsi investisiya-tikinti kompleksində istehsal ehtiyatlarına qənaət etməklə, məhsul və xidmətlərin istehsalına sərf edilən vaxtı azaltmaqla onun keyfiyyətinin yüksəldilməsi hesabına qlobal və milli bazarlarda uğurla rəqabət aparmağa imkan verir.

Tikintidə innovativ fəaliyyətin nəticələri insan həyatının yaxşılaşdırılmasına yönəldilərək, innovasiyaların inkişafı və onun təşviqi ilə bilavasitə bağlı olan müxtəlif sahələrdə elmi, tədqiqat və ya elmi-texniki fəaliyyətin nəticələrindən istifadə prosesi kimi başa düşülür. Hazırda investisiya və tikinti sektorunda müəssisə və təşkilatlar tərəfindən innovasiyaların hazırlanması və tətbiqində bir sıra problemlər mövcuddur. Tikinti müəssisələrinin innovasiya fəaliyyətinə yönəltməyə pul vəsaitlərinin kifayət qədər olmaması, yeniliklərin dəyərinin çoxluğu, yüksək iqtisadi risk, yeni məhsullara çəkilən xərclərin öz-özünü ödəmə müddətlərinin uzun olması kimi iqtisadi amillərlə yanaşı, innovativ potensialın aşağı olması, ixtisaslı kadr çatışmazlığı, digər elmi müəssisələrlə kooperasiya əlaqələrinin zəif olması və s. kimi istehsal və digər amillər mənfi təsir göstərmişdir. Bütün bunlarla yanaşı, tikinti sahəsində fəaliyyət göstərən yerli dizayn təşkilatlarının da inkişaf səviyyəsi yüksək deyildir. Dünyanın ən böyük və tanınmış dizayn təşkilatları sayılan ABŞ, Böyük Britaniya, Kanada, Avstraliya, Hollandiya və Çin şirkətləri əsasən innovativ dizayn texnologiyalarının tətbiqi, perspektivli müştərilərlə işləmək, işçilərin peşəkarlıq səviyyəsinin

yüksəldilməsi, işçilər arasında şirkətin uğurlarına maraq yaradılması və s. kimi amillər hesabına geniş uğur qazanmışlar. Texnologiyaların əhəmiyyətli bir hissəsi investisiya və tikinti təşkilatlarının özləri tərəfindən hazırlanıb həyata keçirilir.

Tədqiqatlar göstərir ki, bu gün “ağıllı” tikintiyə, yəni binaların rəqəmsal modelləşdirilməsindən istifadəyə, layihələrin istifadənin rahatlığına, ictimai və şəxsi təhlükəsizlik məsələlərinə daha böyük diqqət artırılmalıdır. Müasir şəraitdə tikintinin əsas prioritetləri dörd qrup üzrə, o cümlədən torpaqdan səmərəli istifadə, tikinti məhsullarının istehsalı, daşınmaz əmlakla əməliyyatlar, mənzillərin idarə edilməsi və hər yerdə rəqəmsal iqtisadiyyatın innovasiyalarından və imkanlarından maksimum istifadə edilməsi istiqamətində müəyyən edildiyindən, tikinti müəssisələrinin rəqabət qabiliyyətinin yüksəldilməsində investisiya-innovasiya fəaliyyətinin idarə edilməsi və dünya standartlarına uyğun olaraq təkmilləşdirilməsi mühüm əhəmiyyətə malikdir. İnvestisiya və tikinti sektorundakı müəssisələrə davamlı rəqabət üstünlüyü təmin edə biləcək əsas texnologiya intellektual binaların layihələndirilməsi və tikintisi, əlavə istehsalın yaradılması təşkil edir. Bütün bunlar tikntinin rəqabət qabiliyyətinin yüksəldilməsi istiqamətində əhalinin həyat səviyyəsini yüksəldərək, bütünlükdə milli iqtisadiyyatın rəqabət qabiliyyətinin yüksəldilməsinə xidmət edərək ölkəmizdə parıklan sosial-iqtisadi islahatların əsasını təşkil edir.

Qeyd etmək lazımdır ki, əhalinin həyat səviyyəsinin yüksəlməsinə istiqamətlənən sosial-iqtisadi islahatların respublikamızda uğurla davam etdirilməsi, milli iqtisadiyyatın rəqabətqabiliyyətinin yüksəldilməsi ilə yanaşı, Azərbaycanın dünya ölkələri arasında nüfuzununu daha da möhkəmləndirmişdir.

Müzəffər Azərbaycan Ordusunun Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə 44 günlük vətən müharibəsindən sonra işğal altında olan ərazilərimizin bərpası ilə əlaqədar olaraq, 02.02.2021-ci il tarixində imzaladığı “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər”in təsdiq edilməsi haqqında Sərəncamına əsasən növbəti onillikdə ölkənin sosial-iqtisadi inkişafına dair 5 əsas Milli Prioritetin reallaşdırılması üzrə müəyyən edilmiş və sahələrdən biri kimi azad olunmuş ərazilərə Böyük Qayıdış proqramının icrası bu

baxımdan mühüm əhəmiyyət kəsb edir. Həmin proqram çərçivəsində bu ərazilərdə aparılan yenidənqurma işləri, işğaldan azad edilmiş ərazilərin iqtisadi potensialının artmasına təsir edərək, əhalinin sosial-iqtisadi vəziyyətinin daha da yaxşılaşdırılmasına yönəlmişdir.

Digər tərəfdən tikinti müəssisələrində innovasiya-investisiya fəaliyyətinin optimal idarə edilməsi hesabına Azərbaycan Respublikasında tikinti müəssisələrinin rəqabət qabiliyyətinin yüksəldilməsi obyektiv zərurətə çevrilmişdir. Bu baxımdan bu istiqamətdə tikinti müəssisələrində innovasiya-investisiya fəaliyyətinin təkmilləşdirilməsi istiqamətlərinin müəyyən edilməsinin mühüm aspektlərinin araşdırılması nəzəri və praktiki cəhətdən kifayət qədər aktualdır. Qeyd olunan amillər baxımından, tikinti müəssisələrində innovasiya-investisiya fəaliyyətinin təkmilləşdirilməsi məsələləri maksimum diqqətli yanaşmanı və davamlı tədbirlərin görülməsini, bu sahədə olan problemlərin dərindən öyrənilməsini, fundamental tədqiqatların aparılmasını tələb edir. Bütün bunlar dissertasiya işinin mövzusunun aktuallığını göstərir.

Dissertasiya işinin mövzusunun işlənmə dərəcəsi ilə bağlı qeyd etmək mümkündür ki, tikinti müəssisələrinin rəqabət qabiliyyətinin yüksəldilməsi üzrə investisiya-innovasiya fəaliyyəti ilə bağlı tikinti sektoru da daxil olmaqla, müxtəlif iqtisadi fəaliyyət sahələrini əhatə edən müəssisələrdə innovasiyaların tətbiqi və onun təkmilləşdiriməsi istiqamətləri ilə bağlı yerli və xarici ölkə alimlərinin elmi əsərləri vardır. Azərbaycanlı iqtisadçı-alimlərdən akademik Z.A.Səmədzadə, A.F.Musayev, M.A.Məmmədov, T.N.Əliyev, M.C.Atakişiyev, T.Hüseynov, İ.H.İbrahimov, E.M.Hacızadə, G.A.Əzizova, A.H.Tağıyev, A.B.Abbasov, F.H.Qasımov, İ.A.Aslanzadə, S.H.Abbasova, İ.C.Həsənov, Z.Nəcəfov və başqalarının bu istiqamətlərdə elmi araşdırmaları diqqət çəkir. Tikinti müəssisələrinin rəqabət qabiliyyətinin yüksəldilməsi üzrə investisiya-innovasiya fəaliyyəti ilə bağlı bir qrup xarici tədqiqatçı-alimlərin – Kılıç M., Kaya İ., Александрова Е.Н., Воронов А.А., Ершова И.В., Ефромов В.С., Игольников Г., Крылов Э.И., Кунниева З.А., Фатхутдинов Р.А., Щербакова Л.В., Тугушева В.Р., Porter M. E. və digərlərinin elmi əsərlərində müəssisələrin rəqabət qabiliyyətinin yüksəldilməsində innovasiya-investisiya amilləri geniş tədqiq

olunmuşdur. Öz tədqiqat əsərlərində müəlliflər innovasiya-investisiya anlayışının mahiyyətini geniş şərh edərək, innovasiya-investisiya amillərinin nəzəri-metodoloji ptinsiplərini izah etmişlər. Tədqiqat işində qeyd edilən müəlliflərin bu istiqamətdə araşdırmaları, innovasiyanın iqtisadiyyatın müxtəlif sahələrində istehsalla bağlılıqları istiqamətində müsbət rol oynamışdır.

Bunlarla bərabər, hesab edirik ki, Azərbaycan iqtisadiyyatının müasir mərhələsində, işğaldan azad edilmiş ərazilərimizin bərpası, beynəlxalq nəqliyyat dəhlizləri üzrə layihələrin uğurla davam etdirilməsi, əhalinin sosial-iqtisadi vəziyyətinin daha da yaxşılaşdırılması məqsədi ilə Azərbaycan Respublikasında tikinti müəssisələrinini rəqabətqabiliyyətinin yüksəldilməsində innovasiya-investisiya fəaliyyətinin optimal idarə edilməsi və onun təkmilləşdirilməsi istiqamətlərinin elmi metodlarının müəyyən məsələləri mühüm nəzəri və praktiki əhəmiyyət kəsb edir. Tədqiqat işində müəyyən edilmişdir ki, Azərbaycan Respublikasının tikinti müəssisələrinini rəqabətqabiliyyətinin yüksəldilməsində innovasiya-investisiya fəaliyyətinin idarə edilməsi və onun təkmilləşdirilməsinin əsas istiqamətləri kompleks tədqiq edilməmişdir. Bu baxımdan, dissertasiya işinin mövzusu ilə bağlı problemlərin müəyyən edilməsi və həll edilməsi üzrə tədqiqat işinin aparılması zamanın tələbindən irəli gəlir.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyekti Azərbaycanda tikinti sahəsi və onun müəssisələridir. Bu sahədə baş verən iqtisadi proseslər və münasibətlər, rəqabətqabiliyyətinin yüksəldilməsində innovasiya-investisiya fəaliyyətinin idarə edilməsi və onun təkmilləşdirilməsinin əsas istiqamətləridir.

Tədqiqatın predmeti - innovasiya elmi-texniki tərəqqinin nəticələrinin tətbiqi nəticəsində yaranan və iqtisadi nailiyyətlərə nail olmaq üçün mövcud prosesi və ya fəaliyyətin təşkilinin təkmilləşdirməsinə yönəlmiş, tikinti müəssisəsinin fəaliyyətində konkret dəyişikliklərə, sosial, elmi, texniki və ya digər növ təsirlər nəzərə alınmaqla Azərbaycan Respublikasının tikinti müəssisələrinin rəqabət qabiliyyətinin yüksəldilməsində innovasiya-investisiya fəaliyyətinin idarə edilməsi və onun təkmilləşdirilməsi istiqamətlərinin müəyyən edilməsidir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Azərbaycan iqtisadiyyatında tikinti sektorunun müasir və perspektiv inkişafı ilə bağlı olaraq, tikinti müəssisələrinin rəqabət qabiliyyətinin yüksəldilməsində innovasiya-investisiya fəaliyyətinin idarə edilməsinin nəzəri əsaslarını müəyyən etməkdən, investisiya və innovasiyanın səmərəliliyinin mövcud vəziyyətini qiymətləndirməkdən və idarəetmə istiqamətlərinin təkmilləşdirilməsi barədə təkliflər və tövsiyələr irəli sürülməkdən ibarətdir. Dissertasiya işində qarşıya qoyulmuş məqsədlərə nail olmaq üçün əsas vəzifələr müəyyən edilmişdir:

- investisiya fəaliyyətinin idarə olunmasının mahiyyəti və nəzəri metodoloji prinsiplərinin araşdırılması;
- tikinti müəssisələrinin rəqabət strategiyasının formalaşdırılması mexanizminin tədqiqi;
- rəqabət proseslərinin təkmilləşdirilməsində imitasiyalı modelləşdirmənin araşdırılması;
- əsas kapitala yönəldilən investisiyaların dinamikasının xüsusiyyətlərinin araşdırılması;
- qeyri-müəyyənlik şəraitində tikinti sektorunda olan investisiya layihələrinin qiymətləndirilməsi;
- tikinti sektorunda layihələndirmə qərarlarının iqtisadi qiymətləndirilməsi;
- tikinti müəssisələrinin rəqabət qabiliyyətinin yüksəldilməsində innovasiya-investisiya amilinin qiymətləndirilməsi;
- Azərbaycanda tikinti müəssisələrinin fəaliyyətinə təsir edən amillərin modelləşdirilməsi;
- Azərbaycan Respublikasının tikinti müəssisələrində innovasiya-investisiya fəaliyyətinin təkmilləşdirilməsi yollarının işlənilməsi;
- tədqiqat işində əldə edilmiş nəticələr əsasında Azərbaycan Respublikasının tikinti müəssisələrinin rəqabət qabiliyyətinin yüksəldilməsində innovasiya-investisiya fəaliyyətinin idarə edilməsi və onun təkmilləşdirilməsinin əsas istiqamətləri üzrə təklif və tövsiyələrin verilməsi.

**Tədqiqat metodları.** Tədqiqat işi yerinə yetirilərkən elmi abstraksiya, təhlil və sintez, müqayisəli və iqtisadi-statistik təhlil, induksiya və deduksiya, iqtisadi-riyazi modelləşdirmə, ekonometrik

təhlil və qiymətləndirmələr kimi tədqiqat metodlarından istifadə edilmişdir.

**Müdafiəyə çıxarılan əsas müddəalar:**

- tədqiqat mövzusuna uyğun olaraq, tikinti müəssisələrinin rəqabət qabiliyyətinin nəzəri-konseptual əsasları və prinsipləri, təşkili və inkişaf meyllərinə dair mövcud elmi-nəzəri müddəalarına və konseptual fikirlərə münasibət bildirimlərinin sistemləşdirilməsinə ehtiyac vardır.
- tikinti müəssisələrində investisiya qoyuluşunun istiqamətlərini şərtləndirən əsas amillərin təhlili və tikinti sahəsində investisiyaların strateji idarə edilməsinin əsas mərhələlərinin sxeminin qurulması zərurəti yaranmışdır.
- tikinti müəssisələrinin rəqabət strategiyasının formalaşdırılması mexanizmi işlənilməli və rəqabət proseslərinin təkmilləşdirilməsində imitasiyalı modelləşdirmənin rolu artırılmalıdır.
- Azərbaycan Respublikasında tikinti üzrə əsas kapitala yönəldilən investisiyalarda tikintinin payı ilə iqtisadiyyatın açıqlıq dərəcəsi arasında əlaqənin müəyyənləşdirilməsi, eləcə də tikinti sektoru üzrə yaranan əlavə dəyərin zaman amilindən asılılığının trend modelinin qurulması və bu modelə uyğun olaraq tikinti sektorunun yaratdığı əlavə dəyərin artım dinamikasının proqnozlaşdırılması maraq doğurur.
- proqnozların nəticələrinin dəqiqliyi baxımından Eviews-12 tətbiqi proqram paketində Azərbaycanda tikinti sektoru üzrə iş və xidmətlərin dəyəri ilə əsas kapitala yönəldilmiş investisiyalar və istifadəyə verilmiş əsas fondların dəyərini ifadə edən amillərin diaqnostikası üzrə güvən ellipsinin qurulması və Q-statistikası üzrə modelin qalıq diaqnostikası, histoqram normallıq testlərinin aparılması və modelin statistik xarakteristikaları əsasında adekvat model olmasının yoxlanılması labüddür.

**Tədqiqatın elmi yeniliyi** aşağıdakılardan ibarətdir:

- tikinti müəssisələrinin rəqabət qabiliyyətini artırmaq yönümündə strateji məqsədə çatmaq üçün reproduktiv-təkamül yanaşması təklif olunmaqla, tikinti məhsullarının rəqabət üstünlüklərini artırmaq üçün real imkanları müəyyən edən rəqabət strategiyasının formalaşdırılması modeli hazırlanmışdır.

- qabaqcıl texnologiyaların inkişafı və yüksək texnoloji tikinti məhsullarının istehsalı üçün institusional və istehsal şəraitinin inteqrasiyasını təmin edən tikinti təşkilatlarının innovativ fəaliyyətinin aktivləşdirilməsinə yönəlmiş tədbirlər kompleksi hazırlanmışdır.

- müəyyən edilmişdir ki, Azərbaycanda tikinti sektoru üzrə əsas kapitala yönəldilən investisiyaların 1% artması, tikinti sektoru üzrə işlərin dəyərinin 0,26%, istifadəyə verilmiş əsas fondların dəyərinin 1% artması, tikinti sektoru üzrə işlərin dəyərinin 0,48 % artması ilə nəticələnir;

- tədqiqat işində Azərbaycan Respublikasında tikinti sektoru üzrə ümumi məhsul buraxılışında tikinti işlərinin dəyərinin proqnoz qiymətləri ilə zaman amili arasında trend modelinə əsasən $y = -25{,}608x^2 + 2146{,}3x - 17483$ reqressiya tənliyi ilə ifadə olunan olduqca yüksək korrelyasiya əlaqəsi olduğu müəyyən edilmiş və proqnozlara görə Azərbaycan Respublikasında tikinti sektoru üzrə tikinti işlərinin dəyərinin 2030-cu ilədək artan dinamika ilə inkişaf edərək 14155,41 milyon manat olacağı proqnozlaşdırılmışdır;

- tədqiqat işində Azərbaycan Respublikasında 2008-2023-cü illər üzrə tikinti sektorunda ümumi məhsul istehsalının artımı hesabına əsas kapitala yönəldilmiş investisiya qoyuluşlarının artımı üzrə əldə edilmiş akselerasiya əmsalına və sərbəst həddə uyğun olaraq xətti əlaqə qrularaq tikiti sektorunun müstəqil inkişaf qabiliyyəti qiymətləndirilmiş və müəyyən edilmişdir ki, tikinti sektorunun inkişafında xarici investisiya amili yüksək olduğundan daxili imkanlar hesabına müstəqil inkişaf etmə qabiliyyəti tikinti müəssisələrində aşağı səviyyədədir.

- tikinti müəssisələrinin bazarda müsbət imicinin artmasında özünü göstərən tikinti məhsullarının rəqabət üstünlüklərinin artırılması üçün vacib şərt kimi beynəlxalq keyfiyyət standartlarının tələblərinə riayət edilməsi nəzərə alınmaqla biznesin sosial məsuliyyət standartlarının tətbiqi təklif edilmişdir.

- Azərbaycan Respublikasının tikinti müəssisələrini rəqabətqabiliyyətinin yüksəldilməsində innovasiya-investisiya fəaliyyətinin idarə edilməsi və onun təkmilləşdirilməsinin əsas istiqamətləri üzrə tədqiqata əsaslanaraq dissertasiyada aparılan tədqiqatlar üzrə müvafiq təklif və tövsiyələr işlənib hazırlanmışdır.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Dissertasiya işinin nəticələri Azərbaycan Respublikasının tikinti müəssisələrinini rəqabətqabiliyyətinin yüksəldilməsində innovasiya-investisiya fəaliyyətinin optimal idarə edilməsi və onun təkmilləşdirilməsinin əsas istiqamətləri üzrə təklif və tövsiyələrin işlənilməsi, eyni zamanda müasir tələblər səviyyəsində tikinti sektorunun innovativ inkişafının elmi-praktiki əsaslarının müəyyən edilməsi baxımından mühüm əhəmiyyət kəsb edir. Həmçinin, tədqiqat işinin nəticələri ölkənin tikinti müəssisələrinin fəaliyyətinin idarə olunmasının innovativ əsaslarla daha səmərəli təşkilinə, bu sahədə vacib olan proqram və kompleks tədbirlərin hazırlanmasına da öz töhfəsini verəcəkdir. Eyni zamanda, dissertasiya işinin materiallarından tikinti müəssisəlırinin fəaliyyətinin idarə olunmasının təkmilləşdirilməsi ilə bağlı metodoloji sənədlərin hazırlanmasında, bu sahədə milli müəssisə və subyektlərin fəaliyyətinin təşkili və tənzimlənməsi üzrə metodik vəsaitlərinin tərtibində də istifadə oluna bilər.

**Aprobasiyası və tətbiqi.** Dissertasiya işinin əsas məzmunu iddiaçının Ali Attestasiya Komissiyasının tövsiyə etdiyi nüfuzlu yerli və xarici jurnallarda, beynəlxalq və respublika əhəmiyyətli elmi-praktik konfrans materiallarında dərc olunmuş 5 məqalə (1-i xaricdə olmaqla) və 4 tezisdə (2-i xaricdə olmaqla) öz əksini tapmışdır. Çap olunmuş elmi əsərlərin sırasında "Tikinti müəssisələrinin rəqabət qabiliyyətinin yüksəldilməsində innovasiya-investisiya amilinin qiymətləndirilməsi" (Bakı, 2023), "İnvestisiya fəaliyyətinin mahiyyəti və formalaşması prinsipləri" (Bakı, 2023), "The main directions of reintegration of the economy of the territories liberated from the occupation into the country's economy (part 1; 2)" (України, 2023)adlı konfrans materiallarını göstərmək olar.

Bundan əlavə, iddiaçının "Milli prioritetlər işğaldan azad edilmiş iqtisadi regionun perspektiv inkişafının əsasıdır" (Bakı, 2021), "Azərbaycan iqtisadiyyatının inkişaf meylləri və innovasiyalı inkişafın dövlət tənzimlənməsi istiqamətləri" (Bakı, 2021), "Organizational and economic mechanism and development strategy for the restoration of the liberated territories of Azerbaijan in the post-conflict period" (Kharkiv, 2021), "Azərbaycanda qaz təsərrüfatı infrastrukturunun müasir vəziyyəti və perspektiv inkişafının təşkili

və idarə edilməsi” (Bakı, 2022), “Bazar iqtisadiyyatında tikintinin təşkili və idarəedilməsi mexanizmi” (Bakı, 2022) adlı məqalələri dərc olunmuşdur.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Azərbaycan Memarlıq və İnşaat Universiteti.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi.** Dissertasiya işinin struktur tərkibi giriş, üç fəsil, nəticə, istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir. Giriş (18529 işarə), I fəsil (96052 işarə), II fəsil (49474 işarə), III fəsil (44218 işarə), nəticə (7157 işarə) və istifadə edilmiş ədəbiyyat siyahısı (19951 işarə) üzrə ümumi həcm 250454 işarədir. Dissertasiyanın işarə sayı cədvəllər, diaqramlar, şəkillər, istifadə edilmiş ədəbiyyat siyahısı istisna olmaqla 215430 işarədir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiya işinin **giriş** hissəsində mövzunun aktuallığı əsaslandırılmış, tədqiqatın məqsəd və vəzifələri, obyekti və predmeti, tədqiqat metodları, müdafiəyə çıxarılan əsas müddəalar, tədqiqatın elmi yeniliyi, nəzəri və praktiki əhəmiyyəti, aprobasiya və tətbiqi məsələləri öz əksini tapmışdır.

Dissertasiya işinin **“Tikinti müəssisələrinin rəqabət qabiliyyətində investisiya-innovasiya fəaliyyətinin təşkili və onun nəzəri-konseptual əsasları”** adlanan birinci fəslində investisiya fəaliyyətinin idarə olunmasının mahiyyəti və nəzəri metodoloji prinsipləri, rəqabət proseslərinin modelləşdirilməsinin müasir vəziyyəti və təkmilləşdirilməsi məsələləri tədqiq edilmişdir.

İnvestisiyaların qeyri-neft sektoruna yönəldilməsi məqsədi ilə 2004-2023-cü illəri əhatə edən regionların sosial-iqtisadi inkişafı üzrə dörd Dövlət proqramı qəbul və icra olunmuşdur. Bunlarla yanaşı qeyri-neft sektorunun sahələrinin inkişafına yönəldilmiş, dövlət proqramları, inkişaf konsepsiyaları və strategiyalar, milli iqtisadiyyatın inkişaf prioritetlərinin həyata keçirilməsinə, ölkədaxili və xarici ölkələrin investisiyalarının cəlb edilməsi təmin edilir. Həyata keçirilən bu tədbirlər nəticəsində ölkənin ümumi iqtisadiyyatının davamlı və dayanıqlı inkişafı təmin edilir.

İşdə təhlillər nəticəsində müəyyənləşdirilmişdir ki, 2016-cı ildə ÜDM həcmi 40 milyard olduğu halda bu göstərici 2022-ci ildə 133,8 milyard və yaxud 2021-ci ilə nisbətən 4,6% çox məhsul istehsal olunmuş, neft-qaz sektorunda əlavə dəyər bu ilə nisbətən 2,7% azalmış lakin, qeyri neft-qaz sektorunda isə 9,1% artım müşahidə olunmuşdur. Araşdırma göstərir ki, 2022-ci ildə ÜDM istehsalının ümumi həcmində sənaye sektoru 51,1%, ticarət 8,2%, nəqliyyat və anbar təsərrüfatı 6,0%, kənd təsərrüfatı, meşə təsərrüfatı, balıqçılıq 4,8%, turistlərin yerləşdirilməsi və ictimai iaşə 1,6%, informasiya və rabitə sahələri 1,4% ,digər sahələrin payı isə 14,7%, məhsula və idxala xalis vergilər ÜDM-in 7,4%-i təşkil etmişdir (diaqram 1.).




**Diaqram 1. Ümumi Daxili Məhsulun strukturu**

**Mənbə:** *müəllif tərəfindən tərtib olunmuşdur.*

Tədqiqatda müəyyən edilmişdir ki, ölkə iqtisadiyyatının dünya iqtisadiyyatına inteqrasiyası tikinti sektorunda da innovativ texnologiyaların tətbiqini, tikinti sferasının səmərəliliyinin, rəqabətqabiliyyətliliyinin yüksəldilməsini, biznes proseslərinin daha da optimallaşdırılmasını tələb edir.

Statistik məlumatlar əsasında 2015-2022-ci illəri əhatə edən dövr üzrə qeyri-neft sənayesinin artım dinamikasını diaqram 2-dən müəyyən etmək olar.




**Diaqram 2. Qeyri-neft sənayesinin artım tempi**

***Mənbə:*** *müəllif tərəfindən tərtib olunmuşdur.*

Rəqabət üstünlüklərinin gücləndirilməsinə tikinti müəssisəsinin gələcəkdə rəqiblərlə müqayisədə daha səmərəli fəaliyyət göstərməyə imkan yaradan orəqabət strategiyasının hazırlanması ilə nail olunur. Tikinti müəssisələri bütünlükdə bazar şəraitinin öyrənilməsini, öz fəaliyyətlərinin strateji istiqamətlərinin zəruri tədbiri kimi nəzərə alırlar.

Müəyyən edilmişdir ki, idarəetmə aparatının yalnız daxili problemlərə yönəlməsi xarici mühitdəki dəyişikliklərə, istehlakçı tələbinə həssaslığı azalda bilər. Göstərilən problemlərin həlli inkişaf edən bazarın rəqabət mühitinin spesifik xüsusiyyətləri nəzərə alınmaqla tikinti məhsullarının rəqabət qabiliyyətinin artırılması imkanlarının obyektiv qiymətləndirilməsini tələb edir:

1. Bazarda tələbin (təklifin) sabitləşməsini və/və ya azalmasını qiymətləndirmək;
2. Rəqabətin intensivliyinin və aqressivliyinin artımını müəyyənləşdirmək;
3. Kiçik müəssisələrin böyük müəssisələrə birləşməsini və/və ya onlar tərəfindən əldə edilməsini təşkil etmək (ödəmə qabiliyyətinin olmaması və istehsalın yüksək səviyyəli konsentrasiyası);
4. Qiymət artımı səviyyəsini sabitləşdirmək.

Tikinti müəssisələrinin rəqabət strategiyasına bölgənin iqtisadi vəziyyəti əhəmiyyətli dərəcədə təsir göstərir. Bununla əlaqədar olaraq, strateji idarəetmə və tikinti sənayesinin inkişafı çərçivəsində

rəqabət strategiyasının hazırlanmasına ümumi yanaşmanı və tələbatı təmin etmək lazımdır. Tikinti müəssisələrinin fəaliyyəti üçün yuxarıda göstərilən tələblərə uyğun olaraq, onların rəqabət strategiyasının məqsədləri əhəmiyyətli dərəcədə dəyişir (sxem 1.)




**Sxem 1. Tikinti müəssisəsinin rəqabət strategiyasının məqsədli modeli.**
***Mənbə:*** *Müəllif tərəfindən tərtib edilib*

Tikinti müəssisəsinin rəqabət strategiyası ümumi məqsədlərin həyata keçirilməsini nəzərdə tutur:

- daxili bazarda sabit mövqeyi və xarici bazara çıxış imkanını təmin etmək;
- maliyyə vəziyyətinin yaxşılaşdırılması;
- fəaliyyətin etibarlılığının təmini;
- cəmiyyətdə müsbət nüfuz qazanmaq.

Tikintidə rəqabətin inkişafı üçün alternativ strategiya, işlənilmiş rəqabət strategiyası çərçivəsində formalaşan tikinti müəssisəsinin

rəqabət üstünlüklərinin dayanıqlığının təmin edilməsidir. Bu sxem 2-də öz əksini tapmışdır.




**Sxem 2. Sahənin innovativ inkişafı şəraitində tikinti müəssisəsinin rəqabət strategiyasının formalaşdırılması ardıcıllığı.**
***Mənbə:*** *Müəllif tərəfindən tərtib edilib*

Beləliklə, rəqabət strategiyasının bütün növləri tikinti müəssisələrinin uzunmüddətli perspektivdə rəqabətqabiliyyətli strateji üstünlüyünün əldə olunmasına səbəb ola bilər.

İqtisadiyyatın inkişafının müasir mərhələsində imitasiyalı modelləşdirmə daha səmərəlidir və adətən mürəkkəb idarəetmə qərarlarının qəbul edilməsində yeganə düzgün üsuldur. İmitasiyalı model dedikdə elə bir araşdırma üsulu başa düşülür ki, proseslər reallıqda baş verən proseslərə uyğun təsvir olunur. Bir növ gerçəyə bənzər yanaşmadan istifadə edilir. İmitasiyalı modeldə tədqiq olunan obyekt kifayət qədər dəqiqliklə xarakterizə edilir.

İşdə “Akkord Sənaye İnşaat” müəssisəsində imitasiya modelinin tətbiqi tədqiq edilmiş və aşağıdakı nəticələrə gəlinmişdir:

- İstehsal fəaliyyətinin ritmik və fasiləsiz davam etməsi göstəricilərinin yüksəlməsi, strukturlarda boş dayanmaları 21,1% azalmasını təmin etmişdir;
- Şirkətin əmək resurslarının bölgüsü daha səmərəli olmuşdur;
- Tikinti materialları ehtiyatlarının səviyyəsi 40,8% azalmışdır, bu isə müəssisələrdə qeyri istehsal məsrəflərinin 14,4% azalmasına səbəb olmuşdur.
- şirkətin fəaliyyətinin ümumi məhsuldarlığı – bir ay ərzində yerinə yetirilən sifarişlərin həcmi 20% artmışdır.

Tədqiqat göstərir ki, göstəricilər qeyd olunan tikinti işlərinin yerinə yetirilməsi müddətinin qısalmasına və şirkətin mənfəətinin bir ay ərzində 19% artmasına səbəb olmuşdur.

Dissertasiya işinin **“Azərbaycanın tikinti sektorunda əsas kapitala investisiyaların dinamikası və innovasiya yönümlü investisiyaların səmərəliliyinin artırılması istiqamətləri”** adlanan ikinci fəslində əsas kapitala yönəldilən investisiyaların dinamikasının xüsusiyyətləri araşdırılmış, qeyri-müəyyən risk şəraitində inşaat sektorunda investisiya layihələrinin və layihələndirmə qərarlarının iqtisadi qiymətləndirilməsi aparılmışdır.

Tədqiqat işində sistem transformasiyaları şəraitində əsas kapitala investisiyaların makroiqtisadi səmərililiyinin formalaşması investisiya qoyuluşlarının effektivliyinin səviyyəsini şərtlərindən amillərin təsirinin ətraflı nəzərdən keçirilmişdir.

Tədqiq edilən dövrdə əsas kapitala yönəldilən investisiyaların quruluşunu əks etdirən 1-ci cədvəlin məlumatları 1990-cı illərin birinci yarısında Azərbaycanda investisiya böhranının yaşandığını deməyə imkan verir. İnvestisiya böhranı keçid dövründə ölkəmizin iqtisadiyyatını bütövlükdə əhatə etmiş böhranın tərkib hissəsi kimi çıxış etmişdir. 1991-1993-cü illərdə iqtisadi tənəzzül dövrü yaşayan respublikamız Azərbaycan xalqının Ümummilli lideri H. Əliyev tərəfindən 1994-cü ilin 20 sentyabr tarixində Əsrin Müqaviləsi sazişinin imzalanması ilə bu böhranın qarşısını ala bildi. Bundan sonrakı dövrlərdə neft sektoruna xarici investisiya axınlarının güclənməsi, bu sektorun inkişafı hesabına digər sahələrin də, o

cümlədən tikinti sektorunun inkişafını şərtləndirdi. Aşağıdakı diaqramda 2005-2022-ci illər üzrə sənayeyə qoyulan investisiyaların, o cümlədən daxili və xarici investisiyaların həcmi göstərilmişdir.

**Cədvəl 1.**

**Azərbaycan Respublikasında faktiki qiymətlərlə əsas kapitala yönədilmiş investisiyaların quruluşu (mln manat)**

| İllər | Cəmi investisiyalar | o cümlədən | | |
|---|---|---|---|---|
| | | Tikinti-quraşdırma işləri | Maşın, avadanlıq, alətlər və inventarlar | Digər işlər |
| **1995** | 227,98 | 114,95 | 72,35 | 40,6714 |
| **2000** | 967,82 | 412,33 | 226,96 | 328,5251 |
| **2005** | 5 769,88 | 3 109,70 | 1 350,77 | 1309,408 |
| **2010** | 9 905,67 | 6 569,41 | 2 579,50 | 756,7524 |
| **2011** | 12 799,06 | 7 834,85 | 2 380,23 | 2583,984 |
| **2012** | 15 407,27 | 9 407,90 | 2 348,76 | 3650,62 |
| **2013** | 17 850,82 | 11 837,49 | 2 222,66 | 3790,667 |
| **2014** | 17 618,60 | 13 287,65 | 2 064,80 | 2266,152 |
| **2015** | 15 957,03 | 11 722,89 | 1 980,58 | 2253,555 |
| **2016** | 15 772,83 | 11 531,95 | 1 866,11 | 2374,764 |
| **2017** | 17 430,34 | 12 447,04 | 2 161,97 | 2821,334 |
| **2018** | 17 244,86 | 11 737,62 | 2 032,31 | 3474,934 |
| **2019** | 18 539,48 | 11 974,84 | 2 301,33 | 4263,306 |
| **2020** | 17 226,11 | 11 021,95 | 2 893,11 | 3311,051 |
| **2021** | 16 815,46 | 11 200,13 | 3 289,04 | 2326,299 |
| **2022** | 17 878,17 | 13 142,93 | 3 094,24 | 1640,997 |
| **2023** | 21 310,71 | 15 028,26 | 3 382,05 | 2900,395 |

***Mənbə:*** *Müəllif tərəfindən tərtib edilmişdir.*

Diaqramdan görünür ki, investisiya məbləği 2008/2017-ci illər üzrə artan dinamika ilə inkişaf etmiş, 2019-2022-ci illərdə isə bu artım azalma ilə müşahidə edilmiş, investisiyaların dinamikasına uyğun olaraq istifadəyə verilmiş əsas fondların da dəyəri dəyişilmiş, əsas kapitala investisiya qoyuluşu, əsasən ölkə üzrə ÜDM-in artması ilə bərabər kredit qoyuluşlarını da öz növbəsində artırmışdır. Deyilənləri aşağıdakı diaqram 3-dən daha aydın görmək olar:




**Diaqram 3. 2005-2022-ci illər üzrə sənayeyə qoyulan investisiyalar, milyon manatla.**
***Mənbə:*** *müəllif tərəfindən tərtib edilmişdir.*




**Diaqram 4. 2014-2022-ci illər üzrə əsas makroiqtisadi göstəricilərin dinamikası.**
***Mənbə:** müəllif tərəfindən tərtib edilmişdir.*

Diaqram 4-dən göründüyü kimi, əsas makroiqtisadi göstəricilər üzrə ÜDM bütün dövr üzrə artan dinamika ilə inkişaf etmişdir.Cari hesablar balansı isə 2015-2016-cı illərdə müvafiq olaraq 222,5 milyon ABŞ dolları və 1363,4 milyon ABŞ dolları təşkil etmişdir ki, bu da dünya bazarında həmin illərdə neftin qiymətinin kəskin ucuzlaşması ilə əlaqədar olaraq milli valyutanın ABŞ dolları ilə müqayisədə məzənnəsinin azalması hesabına yaranmışdır. 2019-cu ildə dünyanı bürüyən COVİD-19 pandemiyası nəticəsində isə 2020-ci ildə carı hesab balansı Azərbaycanda - 227,6 milyon ABŞ dolları olsa da, sonrakı illərdə müsbət dinamika ilə nəticələnərək 2022-ci ilə 23478,9 milyon ABŞ dolları həcmində olmuşdur. Tikinti sektoru üzrə tikinti materialları sənayesinə yönəldilən investisiyalar isə 2009-2010-cu illərdə artsa da, bu göstərici 2010-2012-ci illərdə azalan dinamika ilə inkişaf etmişdir. Aşağıdakı diaqram 5-dən göründüyü kimi, investisiya qoyuluşu üzrə tikinti sənayesində xarici investisiyalar 2015-ci və 2022-ci illərdə olmuşdur. Digər dövrlərdə isə bu sahəyə investisiya qoyuluşu daxili investisiyalarla tənzimlənmişdir.




**Diaqram 5. 2014-2022-ci illər üzrə əsas makroiqtisadi göstəricilərin dinamikası**

***Mənbə:*** *müəllif tərəfindən tərtib edilmişdir.*

Əsas kapitala yönəldilən investisiyiaların genişləndirilməsi ölkə iqtisadiyyatına yerli və xarici investorlar tərəfindən vəsait qoyuluşlarının hesabına baş vermişdir. Ölkəmizdə əsaslı islahatların həyata keçirilməsi ilə daxili investisiyaların həcmi əhəmiyyətli dərəcədə yüksəlmiş, bir tərəfdən infrastrukturun inkişaf etdirilməsinə dövlət tərəfindən ayrılan əsaslı vəsaitlərin həcmi artarkən, digər tərəfdən isə özəl sektorun investorlarının ölkə iqtisadiyyatında həyata keçirilən layihələrdə iştirakı genişlənmişdir.

Tikinti layihələrinin risklərinin təhlil edilməsi və buna müvafiq təkliflərin hazırlanması, layihələrin səmərəli idarə edilməsində, maliyyə vəsaitlərinə olan tələbatın düzgün dəyərləndirilməsində və proqnoz göstəricilərin real tərtib edilməsində xüsusi əhəmiyyətə malikdir. Eyni zamanda layihənin ekspertizası meydana çıxa biləcək çatışmazlıqların mümkün neqativ nəticələrinin qiymətləndirilməsinə imkan verir. İnvestisiya layihəsinin ekspertizasının əsas tərkib hissəsi investisiyalaşdırmada vacib rol oynayan risklərin təhlil edilməsi və qiymətləndirilməsidir. Tikinti sektoruna qoyulan sərmayələr müəyyən risklə əlaqədar, belə ki, layihə uğursuzluqla nəticələnə bilər, gözlənildiyindən qeyri-effektiv və ya az effektiv ola bilər. Sərmayə layihəsinin təhlili zamanı risk amilini nəzərə almaq, riskin mümkün qədər daha çox növünü aşkar etmək və layihənin ümumi riskini minimuma endirmək istifadə tədbirlərinin həyata keçirilməsi məqsədə müvafiqdir.

İşdə tikinti quraşdırma işlərinə investisiya yönəldən sahibkarların üç qrupda sistemləşdirilməsi təklif olunur:

- riskə meyilli olmayan (riski yüksək olan tikinti-layihələrə sərmayənin qoyulmaması);
- riskə neytral olan (riskin olub olmamasına biganə olanlar, bu layihələr əsasən dövlət tərəfindən dəstəklənir).
- riskə meyilli (tikintinin aparılmasının riskli olmasını nəzərə alaraq prosesin davam etdirilməsi);

Riskə münasibət birbaşa sərmayə məqsədindən (layihənin risklilik səviyyəsi), həmçinin investorun maliyyə vəziyyətindən asılıdır. Düzgün sərmayə qoyuluşu qərarının qəbulu üçün yalnız qazanılacaq gəlir həcmi, risk səviyyəsi deyil, eyni zamanda gözlənilən gəlirə təsir edəcək riskin nə qədər kompensasiya olunacağı müəyyən edilməlidir.

Bəzən tərkibində risk təhlili olan bəzi tikinti layihələrinin biznes-planlarında yaranan problem ancaq maliyyə risklərinin təhlilində nəzərdən keçirilməklə, layihə risklərini hərtərəfli əks etdirməyən bank riski təhlili ilə tam əvəzləşdirilir.

Deyilənləri ümumiləşdirərək belə nəticəyə gəlinir ki, risk qiymətləndirilməsi üzrə ümumi ardıcıllıq aşağıdakı fəaliyyət istiqamətləri kimi sistemləşdirilə bilər:

1. Riskin mənbəyi, səbəbi, yerinə yetirilmə prosesində risk yaranmasına səbəb olan mərhələləri müəyyənləşdirmək və görüləcək işləri aşkar etmək.

2. Qəbul edilən tikinti layihəsinin xarakterini nəzərə alıb ona xas mümkün riskləri identifikasiya etmək.

3. Tikintinin iqtisadi məqsədəuyğunluğunu müəyyən edən fərqli risklərin səviyyəsini ayrılıqda və bütövlükdə qiymətləndirmək.

4. Riskə məxsus mümkün səviyyəni müəyyən etmək;

5. Risk yaranma təhlükəsinin azaldılmasına yönəldilən müvafiq tədbirlər planını işləmək və həyata keçirmək.

Qeyd etmək lazımdır ki, tikinti sahəsində tikinti-quraşdırma işlərinin layihələndirilməsi, tikinti prosesində texniki-quraşdırma, təşkilati-texnoloji və idarəetmə, təssərrüfat qərarlarının qəbul edilməsi çoxvariantlılıq şəraitində həyata keçirilir.

Yəni, tikinti-quraşdırma işləri aparılan obyektlər müxtəlif konstruktiv və həcm-planlaşdırma həllərinə malik ola bilər, müxtəlif çeşidli materiallardan istifadə etməklə ənənəvi və müasir maşın-mexanizmlər, innovativ texnologiyalar tətbiq etməklə müxtəlif üsul və metodlardan istifadə edilərək inşa edilə bilər. Müəyyənləşdirilmişdir ki, tikinti-quraşdırma işlərinin səmərəli və icra müddətinə müvafiq yerinə yetirilməsini təmin edən mövcud olan çoxsaylı variantlardan ən əlverişlisini seçmək prioritet və zəruri məsələlərdir.

İşdə göstərilir ki, ən səmərəli və optimal variantlar bir qayda olaraq mövcud olan bütün variantların texniki-iqtisadi göstəricilərinin müqayisəli təhlili və alınmış nəticələrdə yeni tikinti layihəsinin göstəricilərini nəzərə almaqla seçilir. Bir qayda olaraq mümkün və fərqli həll variantlarını müqayisə edərkən iqtisadi səmərələlik üzrə meyar kimi həm istismar, həm də əsas və köməkçi

göstəricilər nəzərdən keçirilir, sonunda daha əlverişli iqtisadi-texniki göstəricilər sistemləşdirilib istifadəyə yararlı hala salınır.

Əsas göstəricilər sisteminə sərmayə yatırımları, müəssisənin istehsal-təsərrüfat fəaliyyəti haqqında məlumat və hesabat göstəriciləri, tikinti-quraşdırma işlərinin qiyməti (və ya mal-materialın vahidinin qiyməti) kateqoriyasına aid olan göstəricilər daxil edilir. Eyni zamanda bura bunlar ilə yanaşı əmək fəaliyyəti ilə əlaqədar göstəricilər, yığımlılıq əmsalı, əsas tikinti materiallarının xərci, tikinti-quraşdırma işlərinin xərclər smetası, mühəndis kommunikasiya quğuları ilə yanaşı yol istismar davamlılığı, tikinti-komunnikasiya və yol inşası ilə bağlı torpaq işlərinin həcmi, sahə mənimsənilməsinin vacib xərcləri (tikililərin sökülməsi, daşınması, meşə kəsimi, drenaj və s.), tikilən binaların həcmi və parametrləri, mühəndis-kommunikasiya və nəqliyyat üzrə istismar xərcləri, xammal, yanacaq və enerji xərcləri, bina və tikililərin istismar müddəti və digər tikinti və istismar göstəricilərini də aid etmək olar.

Dissertasiya işinin **“Azərbaycan Respublikasında tikinti müəssisələrinin rəqabətqabiliyyətliliyinin yüksəldilməsində innovasiya-investisiya fəaliyyətinin idarə edilməsinin təkmilləşdirilməsi istiqamətləri”** adlanan üçüncü fəslində müəssisə və təşkilatın innovativ fəaliyyətinin insanların həyat şəraitinin və keyfiyyətinin yaxşılaşdırılması, biznes mühitində isə iqtisadi sistemlərin fəaliyyətinin səmərəliliyinin artırılması məsələləri tədqiq olunmuşdur.

Azərbaycan iqtisadiyyatının hazırkı inkişafı mərhələsində iqtisadi fəaliyyət sahələrinin mövcud struktur bölmələrinin səmərəli istifadəsi məqsədi ilə innovasiya və investisiya problemlərinin idarə edilməsi vacib əhəmiyyət kəsb edir. Ölkədə keçid dövrünün ilk illərində yəni, 1995-ci ildən bütün sahələrdə o cümlədən tikinti sektorunda islahat, inkişaf xarakterli proqram və tədbirlər həyata keçirilməyə başladı. Bu dövrdə tikinti üzrə əsas kapitala yönəldilən investisiyalar və istifadəyə verilmiş əsas fondların dəyəri işdə tədqiq edilmiş və aparılan tədqiqat nəticəsində aşağıdakı qrafik tərtib edilmişdir.

Qrafikə 1-ə əsasən Azərbaycan Respublikasında 1995-2023-cü illər üzrə tikintidə əsas kapitala yönəldilən investisiyaların tərkibində tikinti-quraşdırma işlərinin payı 42,6%-75,4% aralığında dəyişmişdir.

1995-ci ildən etibarən strateji əhəmiyyətli sazişlərin imzalanması, ölkəmizin bir sıra beynəlxalq təşkilatlara üzv olması artıq xarici ticarət fəaliyyətinin artımını şərtləndirmiş, ölkəyə investisiya axınını artırmışdır.




**Qrafik 1. Azərbaycan Respublikasında 1995-2023-cü illər üzrə tikinti üzrə əsas kapitala yönəldilən investisiyaların tərkibində tikint-quraşdırma işlərinin payı, %-lə.**

***Mənbə:*** *müəllif tərəfindən tərtib edilib.*

Qeyd etmək lazımdır ki, investisiya mühitinin yaxşılaşdırılması ilə bərabər ticarət dövriyyəsinin ÜDM-də payı ilə xarakterizə edilən iqtisadiyyatın açıqlıq dərəcəsi də xarici investisiya axının artmasına mühüm təsir göstərir. 2 saylı qrafikdə 2012-2022-ci illərin statistik məlumatları əsasında tərtib edilmiş Azərbaycan Respublikasında tikinti üzrə əsas kapitala yönəldilən investisiyalarda tikintinin payı ilə, iqtisadiyyatın açıqlıq dərəcəsi arasındakı korrelyasiya-reqressiya analizinin nəticəsi qeyd edilmişdir.

Qrafikdən görünür ki, Azərbaycan Respublikasında tikinti üzrə əsas kapitala yönəldilən investisiyalarda tikintinin payı ilə, iqtisadiyyatın açıqlıq dərəcəsi aralığında y = 0,3687*X - 3,6695 xətti reqressiya tənliyi ilə ifadə olunmuş yüksək korrelyasiya asılılığı vardır $r = \sqrt{0,6857}$ =0,828070045. Determinasiya əmsalına əsasən,

xətti reqressiya modelinə daxil olan izahedici dəyişən kimi iqtisadiyyatın açıqlıq dərəcəsi müvafiq reqressiya modelinin nəticə amilini 68,6% izah edir.




**Qrafik 2. Azərbaycan Respublikasında tikinti üzrə əsas kapitala yönəldilən investisiyalarda tikintinin payı ilə, iqtisadiyyatın açıqlıq dərəcəsi arasındakı asılıq.**

***Mənbə:*** *MS Exceldə müəllif tərəfindən tərtib edilib.*

Onu da qeyd etmək yerinə düşər ki, tikinti-quraşdırma işlərinin həcminin təhlili onun son 5-10 il ərzində müqayisəli qiymətlərlə dinamikasının öyrənilməsi ilə başlayır. Tikinti məhsullarının həcminin əsas, zəncirvari və orta illik artım templərini və artımını hesablamaqla qiymətləndirilir. Aşağıdakı cədvəldə Azərbaycan Respublikası üzrə tikinti işlərinin dəyəri və tikintidə əsas kapitala yönəldilən investisiyalarla, istifadəyə verilmiş əsas fondların dəyəri verilmişdir.

Tikinti işlərinin dəyəri və tikintidə əsas kapitala yönəldilən investisiyaların artımı bu sektorda iş və xidmətlərin həcminin artmasına əsaslı şəkildə təsir etdiyindən bu göstəricilər arasındakı asılılığın qiymətləndirilməsi mühüm əhəmiyyət kəsb edir. Cədvəl 2-nin məlumatlarından göründüyü kimi, Azərbaycan Respublikasında tikinti sektoru üzrə tikinti işlərinin 2006-2023-cü illər üzrə dəyəri artan dinamika ilə inkişaf etmişdir.

Azərbaycan Respublikasında tikinti sektoru üzrə əsas kapitala yönəldilən investisiyalarla, istifadəyə verilmiş əsas fondların və tikinti işlərinin 2006-2023-cü illər üzrə dəyərinin qrafiki təsvirini EViews-12 tətbiqi proqram paketində versək aşağıdakı nəticəni alarıq.

**Cədvəl 2.**

**Azərbaycan Respublikasında tikinti sektoru üzrə əsas kapitala yönəldilən investisiyalarla, istifadəyə verilmiş əsas fondların və tikinti işlərinin 2006-2023-cü illər üzrə dəyəri, mln. manatla**

| İllər | Tikintidə əsas kapitala yönəldilmiş investisiyalar, mln. Manatla (X1) | Tikinti üzrə istifadəyə verilmiş əsas fondların dəyəri, mln manatla (X2) | Tikinti işlərinin dəyəri, mln.manatla. (Y) |
|---|---|---|---|
| 2006 | 453,8189 | 280,4309 | 2119,7 |
| 2007 | 484,4211 | 312,6551 | 2702,4 |
| 2008 | 813,6093 | 429,2677 | 3785,5 |
| 2009 | 681,0388 | 535,3391 | 3484,9 |
| 2010 | 925,1412 | 631,8863 | 4531,4 |
| 2011 | 1157,482 | 915,4945 | 6115 |
| 2012 | 1868,233 | 1470,676 | 7716 |
| 2013 | 1894,751 | 1549,27 | 8721,2 |
| 2014 | 2221,678 | 1828,767 | 8591,9 |
| 2015 | 2123,465 | 1710,518 | 7319,6 |
| 2016 | 2831,773 | 1930,048 | 7660,4 |
| 2017 | 2746,055 | 1915,875 | 7762,1 |
| 2018 | 3721,428 | 1472,85 | 8448,3 |
| 2019 | 3550,443 | 1661,764 | 9439,2 |
| 2020 | 3178,451 | 1808,868 | 9778,8 |
| 2021 | 4033,232 | 1826,222 | 8741,2 |
| 2022 | 3523,728 | 2613,206 | 10558,9 |
| 2023 | 4727,5 | 2423,4 | 12635 |

***Mənbə:*** *Müəllif tərəfindən tərtib edilmişdir.*

Diaqram 6-dan göründüyü kimi, tikinti sektorunda əsas kapitala yönəldilmiş investisiyaların həcmi və əsas fondların ilin sonuna balans dəyəri tədqiq olunan dövr üzrə daha çox artıma meyil ilə inkişaf etmişdir. Bu artım ümumilikdə tikinti işlərinin dəyərinin 2015-ci il istisna olmaqla artan dinamika ilə inkişafını şərtləndirmiş və 2023-cü il üzrə 12635 mln. manatlıq tikinti işləri üzrə dəyərin yaranması ilə nəticələnmişdir.




**Diaqram 6. Azərbaycan Respublikasında tikinti sektoru üzrə əsas kapitala yönəldilən investisiyalarla, istifadəyə verilmiş əsas fondların və tikinti işlərinin 2006-2023-cü illər üzrə dəyərinin EViews-12 tətbiqi proqram paketində təsviri**
***Mənbə:*** *Cədvəl 3.2.1.məlumatlarına əsasən EViews-12 tətbiqi proqram paketində müəllif tərəfindən tərtib edilib*

Qeyd etmək lazımdır ki, yerinə yetirilmiş tikinti işlərinin dəyərinin artması bu sektorda əlavə dəyərin artmasını da şərtləndirmişdir (qrafik 3.).




**Qrafik 3. Azərbaycan Respublikasında tikinti sektoru üzrə 2000-2023-cü illər üzrə yaranmış əlavə dəyərin trend modeli**
***Mənbə:*** *MS Exceldə müəllif tərəfindən tərtib edilib.*

Qrafikdən göründüyü kimi, Azərbaycan Respublikasında tikinti sektoru üzrə 2000-2023-cü illər üzrə yaranmış əlavə dəyərin həcminin zaman amilindən asılılığı y = 337,88x - 675587 xətti reqressiya tənliyi formasındadır. Trend modeli göstərir ki, Azərbaycanda tikinti sektorunda yaranan əlavə dəyərin zaman amilindən Çeddok şkalasına görə yüksək korrelyasiya asılılığına malikdir( r = $\sqrt{0,8435}$ = 0,918423). Tikinti sektoru üzrə yaranmış əlavə dəyər bu sektorda iş və xidmətlərin dəyərinin artması ilə müəyyən edildiyindən, Azərbaycan Respublikasında tikinti sektoru üzrə əsas kapitala yönəldilən investisiyalarla, istifadəyə verilmiş əsas fondların və tikinti işlərinin dəyərinə təsirinin qiymətləndirilməsi mühüm əhəmiyyət kəsb edir.

Qurulmuş modelin statistik əhəmiyyətliliyi yoxlanıldıqdan sonra modelə daxil olan izahedici dəyişənlərin nəticə amilini necə izah etməsini elastiklik əmsalı ilə müəyyən etmək olar.

Əlaqə tənliyindəki sərbəst dəyişənlərin əmsalına və tədqiq olunan dövrlər üzrə səbəb amilləri ilə nəticə amilinin həcminin hesabi orta qiymətlərinə müvafiq olaraq elastiklik əmsalını hesablamaqla aşağıdakı nəticəni alarıq [4, s.149].

$$E_{İN} = \frac{\alpha_1 \times \overline{x_1}}{\bar{Y}} = \frac{0,818213 \times \ 2274,236}{7228,4} = 0,25743$$

$$E_{ƏF} = \frac{\alpha_2 \times \overline{x_2}}{\bar{Y}} = \frac{2,44811 \times \ 1406,474}{7228,4} = 0,476344$$

Aparılan tədqiqat nəticəsində belə bir nəticəyə gəlmək olar ki, Azərbaycanda tikinti sektoru üzrə əsas kapitala yönəldilən investisiyaların 1% artması, tikinti sektoru üzrə işlərin dəyərinin 0,25%, istifadəyə verilmiş əsas fondların dəyərinin 1% artması, tikinti sektoru üzrə işlərin dəyərinin 0,48 % artması ilə nəticələnir.

Beləliklə innovasiyalar müəssisənin rəqabət qabiliyyətini müəyyən edən əsas amil olduğundan, onun elmi fəaliyyət bazarlarında ölçülməsi olduqca mürəkkəbdir.

İşdə qeyd edilir ki, müasir dünyada ölkənin iqtisadi inkişafını şərtləndirən amillər və mənbələr dünya iqtisadiyyatının qloballaşması ilə əlaqədar olaraq mühüm dəyişikliklərlə üzləşir. Azərbaycan iqtisadiyyatının əsasını təşkil edən karbohidrogen

ehtiyatlarının, ölkə üzrə qtisadi artımı şərtləndirən ənənəvi resurs kimi tükənməsi innovativ proseslərin, elmi biliklərin, yeni texnologiyaların və nəticədə yeni əmtəə və xidmətlərin sisteminin formalaşmasını və inkişafını tələb edir. Dünya ölkələrinin müasir iqtisadiyyatının fərqli xüsusiyyəti çox yaxın zamanda inkişaf üçün prioritet olacaq innovasiyadır. İnnovativ inkişaflı iqtisadiyyat resursu kimi sənaye iqtisadiyyatındakı kimi istehsalın maddi amilləri əvəzinə, strukturda tədqiqatçıların əqli əməyinin xüsusi çəkisini kəskin şəkildə artıran əmək amilləri təşkil edir. Mövzu dünya iqtisadiyyatının müasir vəziyyəti göstərir ki, innovativ fəaliyyətin yüksək inkişaflı ölkələri əhəmiyyətli rəqabət üstünlüyü əldə edirlər ki, bu da onların istehsal etdiyi intellektual məhsullarda, həmçinin innovativ fəaliyyətin zəif olduğu və maddi nemətlərin istehsalında ixtisaslaşan dövlətlər üçün mal və xidmətlərə böyük tələbatn olmasında özünü göstərir. Dünya bazarlarında alternativ enerji mənbələrinin inkişafı, gələcəkdə iqtisadiyyatımızın bu günki neft ixracından asılılığının azaldılması məsələsi aktual məsələyə çevirir. Bu isə iqtisadiyyatın bütün sahələrində oduğu kimi tikinti sektorunda da müəssisələrin innovasiya-investisiya fəaliyyətinin təkmilləşdirilməsi yollarının müəyyən edilməsini tələb edir. Qeyd etmək lazımdır ki, tikinti sektorunun əvvəlki illərlə müqayisədə son dövrlərdə innovasiyalı inkişafı bu sektora yönəldilən investisiyaların həcminin artması ilə müəyyən eilmişdir. Tikinti sektorunda yaradılmış əlavə dəyər əsasən bu sektora yönəldilən investsisiyaların həcminin artması hesabına innovativ texnologiyaların tətbiqi ilə həyata keçirilmişdir. Tikinti üzrə iqtisadi artımda investisiya amili mühüm rol oynadığından, iqtisadi artıma tələb olunan investisiyaların kəmiyyətinin qiymətləndirilməsi mühüm əhəmiyyət kəsb edir. Bu qiymətləndirmə akselerasiya əmsalına əsasən müəyyən edilir. Bu baxımdan tikinti üzrə üzrə əsas fondlara investisiya qoyuluşunun artımı hesabına bu sektorda tikinti işlərinin dəyərinin artımına uyğun olaraq tikinti sektorunun Azərbaycanda inkiaf istiqmətini müəyyən etmək olar. Yəni, tikinti sektorunun daxili imkanlar və yaxud dövlət dəstəyi hesabına inkişaf etmə qabiliyyətini qiymətləndirmək olar. Bu qiymətləndirmə tikinti müəssisələrinin müstəqil inkişaf etmə qabiliyyəti ilə xarakterizə edilir.

**Dissertasiyanın "Nəticə" bölməsində tədqiqatın mahiyyətindən irəli gələn elmi-təcrübi əhəmiyyətə malik təklif və tövsiyələr verilmişdir:**

1. Aparılan tədqiqatlar nəticəsində müəyyən edilmişdir ki, tikinti müəssisələrinin bazar şəraitində davamlı rəqabət qabiliyyətini təmin etmək üçün innovasiya-investisiya prosesini təşkil edərkən əsas fəaliyyət növü ilə məşğul olan işçilərin innovativ fəaliyyətinin həyata keçirilməsi ilə bağlı əmək funksiyalarının xüsusiyyətlərini müəyyənləşdirmək lazımdır.

2. İnkişaf edən bazarın ehtiyaclarını ödəmək üçün tikinti istehsalının daim yenilənməsinə yönəlmiş tikinti müəssisəsinin rəqabət qabiliyyətinin artırılması metodlarının inkişafına reproduktiv-təkamül yanaşmasını əldə rəhbər tutaraq, tikinti məhsulları bazarında artan rəqabətin tikinti sənayesində innovativ dəyişikliklərin obyektiv şərti olduğu sübut edilmişdir. Eyni zamanda, tikinti məhsullarının davamlı rəqabət üstünlüklərinin formalaşması, əldə edilmiş iqtisadi göstəricilərlə təsdiqlənən tikinti müəssisələrinin innovativ fəaliyyətinin aktivləşməsinin nəticəsidir.

3. İnkişaf perspektivlərini və tikinti təşkilatlarının real imkanlarını nəzərə alan rəqabət strategiyasının seçilməsində məqsədin qoyuluşu məhsulların rəqabət üstünlüklərini artırmaq üçün çox vacibdir. Bu müddəaya əsasən, rəqabət strategiyasının hədəf modeli tərtib edilmiş və sənayenin innovativ inkişafının tələbləri nəzərə alınmaqla tikinti müəssisəsinin rəqabət strategiyasının formalaşdırılması üçün model hazırlanmışdır.

4. Tikinti sahəsindəki rəqabət mühitinin xüsusiyyətlərinin analitik ümumiləşdirilməsi tikinti müəssisələrinin hədəflərinin təyin edilməsi prosesinə, alternativ rəqabət strategiyasının həyata keçirilməsinə, rəqabət üstünlüklərinin davamlılığının və uzunmüddətliliyinin təmin edilməsinə birbaşa təsir göstərən tikinti məhsullarının rəqabətqabiliyyətliliyinin artırılması amillərinin müəyyənləşdirilməsinə kömək etmişdir. Bununla əlaqədar rəqabət üstünlüklərinin inkişafı prosesinin məntiqi ardıcıllığı açıqlanır, tikinti sənayesinin innovativ inkişafının aktual istiqamətləri nəzərə alınmaqla tikinti məhsullarının rəqabətqabiliyyətliliyinin artırılması şərtləri qruplaşdırılmışdır.

5. Tədqiqat nəticəsində müəyyən edilmişdir ki, Azərbaycan Respublikasında tikinti üzrə əsas kapitala yönəldilən investisiyalarda tikintinin payı ilə, iqtisadiyyatın açıqlıq dərəcəsi arasında y = 0,3687*X - 3,6695 xətti reqressiya tənliyi ilə ifadə olunan yüksək korrelyasiya əlaqəsi vardır. Tətqiqatlar göstərir ki, iqtisadiyyatın açıqlıq dərəcəsinin 1% artması, Azərbaycan Respublikasında tikinti üzrə əsas kapitala yönəldilən investisiyalarda tikintinin payının 1,22 % artmasına səbəb olur.

6. Müəyyən edilmişdir ki, Azərbaycan Respublikasında tikinti sektoru üzrə 2000-2023-cü illər üzrə yaranmış əlavə dəyər zaman amilindən trend modeli üzrə asılılığı y = 356,37x - 712705 xətti reqressiya tənliyi ilə ifadə olunmaqla, yüksək korrelyasiya asılılığına malikdir.

7. Tədqiqat işində Eviews-12 tətbiqi proqram paketində Azərbaycanda tikinti sektoru üzrə iş və xidmətlərin dəyəri ilə əsas kapitala yönəldilmiş investisiyalar və istifadəyə verilmiş əsas fondların dəyərini ifadə edən amillərin diaqnostikası üzrə güvən ellipsi və Q-statistikası üzrə modelin qalıq diaqnostikası və hostoqram normallıq testlərini aparılmış və modelin statistik xaraterisikaları əsasında adekvatlığı yoxlanılmışdır. Müəyyən edilmişdir ki, Azərbaycanda tikinti sektoru üzrə əsas kapitala yönəldilən investisiyaların 1% artması, tikinti sektoru üzrə işlərin dəyərinin 0,26%, istifadəyə verilmiş əsas fondların dəyərinin 1% artması, tikinti sektoru üzrə işlərin dəyərinin 0,47 % artması ilə nəticələnir.

8. EViews tətbiqi proqram paketinə uyğun olaraq alınmış $\boldsymbol{y = 0,818x_1 + 2,448x_2 + 1924,386}$ reqresiya tənliyi tikinti sektoru üzrə işlərin dəyərinin müvafiq illər üzrə qiymətləri ilə yanaşı standart səhvlər, həmçinin tənliyin proqnoz məqsədli istifadəsi bir sıra xarakteristikaları yoxlanılaraq modelin proqnoza yararlılığı müəyyən edilmişdir;

9. Tədqiqat işində Azərbaycan Respublikasında tikinti sektoru üzrə ümumi məhsul buraxılışında tikinti işlərinin dəyərinin proqnoz qiymətləri ilə zaman amili arasında trend modelinə əsasən y = -25,608$x^2$ + 2146,3x - 17483 reqressiya tənliyi ilə ifadə olunan olduqca yüksək korrelyasiya əlaqəsi olduğu müəyyən edilmiş və

proqnozlara görə Azərbaycan Respublikasında tikinti sektoru üzrə tikinti işlərinin dəyərinin 2030-cu ilədək artan dinamika ilə inkişaf edərək 14155,41 milyon manat olacagı proqnozlaşdırılmışdır;

10. İşdə Azərbaycan Respublikasında 2008-2023-cü illər üzrə tikinti sektorunda ümumi məhsul istehsalının artımı hesabına əsas kapitala yönəldilmiş investisiya qoyuluşlarının artımı üzrə əldə edilmiş akselerasiya əmsalına və sərbəst həddə uyğun olaraq xətti əlaqə qurularaq tikiti sektorunun müstəqil inkişaf qabiliyyəti qiymətləndirilmişdir;

11. Müəyyənləşdirilmişdir ki, Azərbaycan Respublikasında tikinti sektoru üzrə əsas kapitala yönəldilmiş investisiyaların proqnoz qiymətləri ilə zaman amili arasında trend modelinə əsasən $y = 4559,6\ln(x) - 8689,8$ loqarifmik reqressiya tənliyi ilə ifadə olunan yüksək korrelyasiya əlaqəsi vardır və proqnozlara görə Azərbaycan Respublikasında tikinti sektoru üzrə əsas kapitala yönəldilmiş investisiyalar 2028-ci ilədək artan dinamika ilə inkişaf etsə də, sonrakı illərdə azalaraq 2030-cu ildə 5745,9 milyon manat olacaqdır. Həm də innovativ fəaliyyətin təşkili olmadan praktiki olaraq avadanlıq və işçi heyyətin məhsuldarlığının artırılması mümkün deyildir.

12. İstehsal prosesini təkmilləşdirmək üçün innovasiyaların axtarışı, inkişafı və tətbiqi prosesinin davamlı şəkildə həyata keçiriləcəyi təşkilati struktur beynəlxalq təcrübəyə uyğun olaraq formalaşdırılmalı və bu struktur idarəetmənin bütün səviyyələrində rəhbərlərin və menecerlərin vəzifələrinin tərkib hissəsinə çevrilməlidir;

13. Müəssisələrin innovasiya aktivliyinə bəzi makroiqtisadi göstəricilərin təsiri və innovativ inkişafın tələblərinin sxemi tərtib edilmiş və müəyyən edilmişdir ki, müəssisələrin innovasiya siyasətinin aparılmasında makroiqtisadi amillərlə yanaşı, bu amillər qrupunun qarşılıqlı əlaqəsində müəssisənin maliyyə ehtiyyatları mühüm rol oynayır. Belə ki, innovativ yeniliklərin tətbiqi kifayət qədər yüksək vəsaitlə bağlı olduğundan, müəssisənin maliyyə vəsaitinin çatışmazlığı, innovasiyalardan müəssisənin imtina etməsi hesabına müəssisədə zəif innovasiya potensialına səbəb olur;

14. Müəyyən edilmişdir ki, müəssisələrin innovasiya aktivliyinə müasir innovasiya texnologiyaları, məhsulları haqqında informasiyaların miqdarının yüksək olması olması müsbət təsir göstərir, əksinə müasir innovasiya texnologiyaları, informasiya məhsullarının istehlakçıları haqqında informasiyaların miqdarının kifayət qədər olmaması innovativ məhsullara tələbin azalması ilə nəticələnir;

15. Müasir şəraitdə müəssisələrin innovativ fəaliyyətlərinə dövlət dəstəyinin azalması və real sektorda innovasiyalı struktura malik olan müəssisələrin kooperasiya əlaqələrinin inkişafı üçün şəraitin zəifləməsi ilə nəticələnərək, inovasiyalı inkişafı ləngidir. Bununla əlaqədar ETLİ-nə çəkilən xərclər innovativ texnologiyaların tətbiqi yeni innovativ məhsulun həcminin artmasına müsbət təsir göstərərək iqtisadi artımı stimullaşdırmaqla yanaşı, dünyanın mühüm qlobal problemlərindən olan ekoloji problemlərin həllində də xüsusi əhəmiyyət kəsb edir.

**Tədqiqatın əsas müddəaları müəllifin nəşr etdirdiyi aşağıdakı əsərlərdə öz əksini tapmışdır:**

1. Məmmədov, M.A., Naqdiyev, O.Ə. Milli prioritetlər işğaldan azad edilmiş iqtisadi regionun perspektiv inkişafının əsasıdır // – Bakı: Tikintinin iqtisadiyyatı və menecment jurnalı, 2021, № 4, – s. 15-20.

2. Bədəlov, M.M., Naqdiyev, O.Ə. Azərbaycan iqtisadiyyatının inkişaf meylləri və innovasiyalı inkişafın dövlət tənzimlənməsi istiqamətləri // – Bakı: Tikintinin iqtisadiyyatı və menecment jurnalı, 2021, № 4, – s. 193-198.

3. Mammadov, M.A., Mammadova, F.A., Qaniyev, X.İ., Naqdiyev, O.A. Organizational and economic mechanism and development strategy for the restoration of the liberated territories of Azerbaijan in the post-conflict period. // – Kharkiv: Kharkiv National Automobile and Highway University, Journal – Economics of Transport Complex, 2021, № 38, – s. 45-60.

4. Bədəlov, M.M., Naqdiyev, O.Ə. Azərbaycanda qaz təsərrüfatı infrastrukturunun müasir vəziyyəti və perspektiv inkişafının təşkili və idarə edilməsi // – Bakı: Tikintinin iqtisadiyyatı və menecment jurnalı, 2022, № 1, – s. 172-177.

5. Naqdiyev, O.Ə. Bazar iqtisadiyyatında tikintinin təşkili və idarəedilməsi mexanizmi // – Bakı: Tikintinin iqtisadiyyatı və menecment jurnalı, 2022, № 3, – s. 91-96.

6. Naqdiyev, O.Ə. Tikinti müəssisələrinin rəqabət qabiliyyətinin yüksəldilməsində innovasiya-investisiya amilinin qiymətləndirilməsi // – Bakı: İşğaldan azad edilmiş ərazilərin ölkə iqtisadiyyatına reinteqrasiyası: hədəflər və istiqamətlər mövzusunda beynəlxalq elmi konfransın materialları. Azərbaycan Memarlıq və İnşaat Universiteti, 13-14 iyun, 2023, – s. 290-295.

7. Naqdiyev, O.Ə., Adıgözəlova, A. İnvestisiya fəaliyyətinin mahiyyəti və formalaşması prinsipləri // – Bakı: İşğaldan azad edilmiş ərazilərin ölkə iqtisadiyyatına reinteqrasiyası: hədəflər və istiqamətlər mövzusunda beynəlxalq elmi konfransın materialları. Azərbaycan Memarlıq və İnşaat Universiteti, 13-14 iyun, 2023, – s. 338-342.

8. Mammadov, M.A., Naqdiyev, O.A., Qasimli, M.B. The main directions of reintegration of the economy of the territories liberated from the occupation into the country's economy (part 1) // – Xarkov: “Сучасні напрямки розвитку економіки І менеджменту підприємств України" Збірник матеріалів міжнародної науково-практичної конференції здобувачів вищої освіти і молодих вчених,17 noyabr, 2023, – s. 25-29.

9. Mammadov, M.A., Naqdiyev, O.A., Qasimli, M.B. The main directions of reintegration of the economy of the territories liberated from the occupation into the country's economy (part 2) // – Xarkov: “Сучасні напрямки розвитку економіки І менеджменту підприємств України” Збірник матеріалів міжнародної науково-практичної конференції здобувачів вищої освіти і молодих вчених.17 noyabr, 2023, – s. 29-33.



Dissertasiyanın müdafiəsi 23 oktyabr 2024-cü il tarixində saat $14^{00}$-da Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Kooperasiya Universiteti nəzdində fəaliyyət göstərən ED 2.46 Azərbaycan Kooperasiya Universiteti və Bakı Biznes Universitetinin birgə Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: AZ1106, Azərbaycan Respublikası, Bakı şəhəri, Nəcəf Nərimanov küçəsi, 93.

Dissertasiya ilə Azərbaycan Kooperasiya Universitetinin kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın elektron versiyası Azərbaycan Kooperasiya Universitetinin rəsmi internet saytında (www.aku.edu.az) yerləşdirilmişdir.

Avtoreferat 21 sentyabr 2024-cü il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 20.09.2024

Kağızın formatı: 60x84

Həcm: 46347 işarə

Tiraj: 100 ədəd